# SƏFƏROV CƏLİL ƏZİZ OĞLU



28 yanvar 1962-ci ildə Gürcüstan Respublikasının Marneuli rayonunun Lejbəddin kəndində anadan olmuşdur. 1977-ci ildə Sumqayıt şəhər 10 saylı orta məktəbin səkkizinci sinfini bitirərək, C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olunmuşdur. Təhsilini başa vuraraq Vladiqafqaz Hərbi Raket-Zenit Komandirləri Məktəbinə daxil olmuşdur. 1984-cü ildə təhsilini başa vurduqdan sonra leytenant rütbəsi ilə Qazaxıstanın Priozyorsk və Balxaş şəhərlərindəki hərbi hissələrdə çalışmışdır. 8 ildən sonra Azərbaycana qayıdaraq, Azərbaycan Müdafiə Nazirliyinin Operativ İdarəsində baş zabit vəzifəsinə təyin edilmişdir. C.Səfərov bir müddətdən sonra zabitlər qrupu ilə birlikdə Dağlıq Qarabağa ezam olunmuşdur. Ezamiyyət müddəti bitdikdən sonra o, döyüş bölgəsində qalmış və hərbi hissədə xidmət etməyi daha üstün tutmuşdur. O, Şuşa döyüş bölgəsində erməni yaraqlılarına qarşı aparılan hərbi əməliyyatlarda mərdliklə döyüşür, düşmən texnikasına dəqiq və sarsıdıcı top zərbələri endirilməsinə başçılıq edirdi. Dinc sakinlərin təhlükəsiz yerlərə köçürülməsində müstəsna xidmətləri olmuşdur. 1992-ci il mayın 15-də Şuşa şəhərinin Turşsu-Zarıslı istiqamətində gedən ağır döyüşdə iştirak etmiş və qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Səfərov Cəlil Əziz oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Sumqayıt şəhərindəki 10 saylı orta məktəb 1993-cü ildən onun adını daşıyır. Gürcüstan Respublikasının Marneuli rayonunun Lejbəddin kəndində abidəsi ucaldılmışdır.